**Heydər Əlirza ƏLİYEV**
Qərbi Kaspi Universiteti Magistr
E-mail: aliyevheyderr@gamil.com

# AZƏRBAYCANDA KİÇİK SAHİBKARLIĞIN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Xülasə**

Ölkəmizdə kiçik və orta sahibkarlıq subyektlərinin sayının artması, eləcə də mövcud olan müəssisələrin inkişafı dövlət tərəfindən qarşıya qoyulan başlıca məsələlərdən biridir. Azərbaycan sahibkarlığın inkişafı üçün yüksək potensiala malik ölkədir. Dövlət tərəfindən bu inkişafı sürətlədirmək üçün çoxsaylı addımlar atılmaqdadır. Sahibkarlara dövlət tərəfindən istər maliyyə təminatı, istərsə də digər güzəştlər baxımından çoxsaylı şərait yaradılmaqdadır. 44 günlük müharibədə qazandığımız qələbə nəticəsində, azad olunmuş ərazilərdə yükək quruculuq işləri aparılmaqdadır. Bu ərazilərdə yaşayış bərpa olunduqca, insanlar kiçik sahibkarlığı inkişaf etdirəcəkdir. İşğaldan azad olunmuş ərazilər turizim, kənd təsərrüfatı kimi sahələr üçün çox əlverişli mövqedədir. Həmçinin kiçik sahibkarlığın inkişafı ölkə iqtisadiyyatının genişlənməsi, işsizlik sayının azaldılması və.s kimi faktorlara müsbət təsir göstərir. Kiçik sahibkarlığın sayının artırılması ilə yanaşı, onların inkişaf etdirilməsi də vacib məqamlardandır. Sahibkarlıq subyektlərinin fəaliyyəti elm və texnologiyanın inkişafına uyğunlaşmalıdır.

**Açar sözlər:** Sahibkarlıq, İqtisadiyyat, Tənzimləmə, Maliyyələşdirmə, İnkişaf

**UOT:** 338.
**JEL:** O32.
**DOI:** https://doi.org/ 10.54414/ DMPV2140

**Giriş**

Kiçik sahibkarlıq ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayır. Kiçik sahibkarlıq sektoru həm işsizlik faizinin azalmasında, həm də yeni innovativ ideyaların həyata keçirilməsində əsas faktorlardandır. Dövlətin iqtisadi siyasətinin əsas istiqamətlərindən biri də kiçik və orta sahibkarlığın dəstəklənməsidir və dövlət tərəfindən bu istiqamətdə bir sıra güzəştli maliyyə mexanizmləri, qanunverici aktlar və dövlət proqramları tətbiq olunur. Lakin, kiçik sahibkarlıq bazarda rəqabətin artması, maliyyə resuslarına çıxışın çətinləşməsi kimi problemlərlə üzləşir ki, bunlarda kiçik və orta biznesin inkişafını zəiflədir.

Müstəqillik əldə olunduqdan sonra ölkəmizdə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi dövlət siyasətinin başlıca prioritetlərindən biri oldu. Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üçün dövlət tərəfindən bəzi addımlar atılıb ki, nəticədə sahibkarların maliyyə rəsuslarına əlçatanlığı təmin olunur və investisya mühitinin inkişaf etdirilməsi üçün bəzi mexanizmlərdən istifadə olunur.

Son illərdə dövlət tərəfindən atılan addımlar rəqəmsal iqtisadiyyatın inkişaf etdirilməsi, maliyyə əlçatanlığının təmin olunması kimi məsələlərin həllinə yönəlib.

Məqalədə Azərbaycan Respublikasında kiçik sahibkarlığın cari vəziyyəti, bu sekorin inkişaf perspektivlər, hazırki problemlər və onların həlli yolları təhlil olunacaq. Dövlətin iqtisadi siyasətində kiçik sahibkarlığın rolu, gələcək inkişaf perspektivlər nəzərdən keçiriləcək.

**Azərbaycanda kiçik sahibkarlığın inkişaf perspektivləri**

Azərbaycnda kiçik sahibkarlığın inkişaf etdirilməsi üçün həm regionlarda, həm də şəhərlərdə

kifayət qədər imkanlar mövcuddur. Belə potensialların reallaşdırılması üçün maliyyə təminatının yaxşılaşdırılmasına və əlverişli biznes mühitinin yaradılmasına ehtiyac vardır.

Regionlarda kiçik sahibkarlığın inkişaf etdirilməsi üçün bəzi tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olardı. Bunlar aşağıdakılardır:

- Regionlarda olan mövcud resuslardan səmərəli istifadə edilməsi ilə regionun sənaye infrastrukturunun dəyişdirilməsi

- Regionun sosial infrastrukturunun, xüsusi ilə də xidmət sektorunun inkikişaf etdirilməsi

- Kənd təsərrüfatının intensiv inkişaf etdirilməsi üçün melorasiya tədbirlərinin həyata keçirilməsi

- qeyd edilən sahələrdə yeni yaradılan kiçik sahibkarlıq subyektlərinə yerli dövlət orqanları tərəfindən lazımi hüquqi yardımların göstərilməsi

Kiçik sahibkarlıq subyektlərinin uğurlu şəkildə inkişafı və nüfuzunun artırılması istiqamətlərindən biri yerli biznesin xarici bazarlarda tanınması və təmsil olunması yolu ilə ixrac potensialının artırılmasıdır. Bu, kiçik sahibkarların xarici bazara çıxmaları üçün onların səmərəli şəkildə dəstəklənməsi yolu ilə həyata keçirilir. Lakin, bu proses kifayət qədər mürəkkəb olduğu üçün çox az sayda olan sahibkarlar özləri həll edə bilir. İstehsal olunan məhsulların ixracının əhatə dairəsinin genişləndirilməsi üçün dövlət tərəfindən güzəştlərin və dəstəyin olunması bu proses üçün vacib faktorlardandır. Bunun üçün aşağıdakı istiqamətdə olan tədbirlərin həyata keçirilməsi lazımdır:

- Məhsul ixracı üçün nəzərdə tutulan əməliyyatların prosedurlarının sadələşdirilməsi;
- Reklam, marketing, sərgilərin təşkil ediməsi kimi proseslərdə dövlət təşkilatları tərəfindən sahibkarlıq subyektlərinə köməklik göstərilməsi;
- Peşəkar xarici ticarət şirkətləri vasitəsilə məhsulların satışında sahibkarlara yardım göstərilməsi;[5,səh 63]

Digər sahələrdə olduğu kimi sahibkarlı fəaliyyəti sahəsində də günü-gündən yeniliklər tətbiq olunmalı, bugünün tələbatına uyğunlaşdırılmalıdır. Bunun üçün Azərbaycanda innovasiya yönümlü kiçik sahibkarlıq strukturlarının fəaliyyətə başlaması üçün xüsusi yer ayrılmalıdır. Araşdırmalar nəticəsində məlum olur ki, Azərbaycanda innovasiya yönümlü sahibkarlıq müəssisələrinin yaradılmasına mane olan amillər vardır. Bunlara istehsal və iqtisadi amillər aiddir. İqtisadi amillər aşağıdakılardır:

- İnnovasiyaların baha olmağı;
- İnnovativ məhsul və xidmətlərin qiymətlərinin əhalinin alıcılıq qabiliyyətindən yuxarı olması;
- Kiçik sahibkarlı subyektlərinin maliyyə resuslarının azlığı;
- İnnovasiya yönümlü kiçik sahibkarlıq subyektləri üçün vergi güzəştlərinin olmaması;
- İxtisaslı mütəxəssislərin azlığı;
- İqtisadi risklərin mövcud olması;
- İnnovasiyalar üçün çəkilən xərclərin geri qayıtma müddətinin uzunluğu;

İnnovasiya prosesinə mane olan istehsal amilləri isə bunlardır:

- Müasir texnoloji yeniliklər və satış bazarı haqqında məlumat azlığı;
- Elmi-tədqiqat bazasının zəif olması nəticəsində müəssislərin əksəriyyətində innovasiyanın inkişafı aşağıdır;

İnnovasiya yönümlü müəssisələrin yaradılması üçün ilkin olaraq yeni innovativ ideyalar irəli sürülməlidir ki, bu ideyalar gələcəkdə innovativ məhsulların xüsusiyyətlərini özündə birləşdirir. İnnovativ ideyalar irəli sürülərkən aşağıdakı istiqamətlər nəzərə alınmalıdır:

- İrəli sürülmüş ideya nəticəsində istehsal oluanacaq məhsula tələbatın nə qədər olacağını müəyyənləşdirmək üçün marketinq təqiqatları aparılmalıdır;
- İstehsal olunacaq məhsulların gələcəkdə nə qədər inkişafının mümkün olduğunun proqnozlaşdırılması;
- İctimai tələbatı təmin edən məhsulların xüsusiyyətlərinin öyrənilməsi;[2,səh 91]

Növbəti mərhələdə ideyanın gələcək perspektivlərres və biznes üçün əhəmiyyəti müəyyən edilməlidir. Budan əldə edilmiş müsbət göstəricilər müəssisənin gələcəkdə innovativ ideyanı qəbul etməsi üçün əsasdır.

Kiçik sahibkarlığın inkişafı ölkədə məşğulluğun və təşəbbüskarlığın inkişafı üçün əlverişli mühitin yaradılmasında əhəmiyyətli rol oynayır. Nəzərə almaq lazımdır ki, sahibkarlıq sahəsinin inkişafı ilə bağlı yeni ideyalar məhz kiçik sahibkarlıq müəssisələrində irəli sürülür. Bundan başqa böyük müəssisələr üçün bəzi xırda məhsulların istehsalı sərfəli olmadığı halda, kiçik sahibkarlıq müəssisləri üçün belə məshulların istehsalı uyğundur və rentabelliyi təmin edir.

Biz 2022-2023-cü ildə ölkədə fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayına nəzər yetirsək görə bilərik ki, əvvəlki illərə nisbətən artım olmuşdur:

| Fəaliyyət göstərən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin sayı | | |
|---|---|---|
| Mikro sahibkarlıq subyektlərinin sayı | 366.944 | 389.133 |
| Kiçik sahibkarlıq subyektlərinn sayı | 7.760 | 8.610 |
| Orta sahibkarlıq subyektlərinin sayı | 3.138 | 3.406 |

Cədvəldə qeyd olunan mikro sahibkarlıq subyektlərinin 2022-ci ildə 31638-i, 2023-də 35778-i hüquqi şəxs formasında, digərləri isə fərdi sahibkar olaraq fəaliyyət göstərmişdir. Ümumi olaraq 2022 və 2023-cü illəri müqayisə etmiş olsaq 23307 sahibarklıq subyeti artımı müşahidə etmiş olaraq. [7]

Son illərdə inkişaf etmiş ölkələrdə, eləcə də, Azərbaycanda əldə edilmiş təcrübələri təhlil etsək, görmək mümkündür ki, iqtisadiyyatın inkişafında kiçik sahibkarlığın xüsusiyyətlərinin müstəsna rolu var. Bunlara aşağıdakılar aiddir:

- Elmi və texniki yenilikləri araşdırıb tətbiq edirlər;
- Məhsul istehsalı zamanı yeni növlər və çeşidlər tətbiq edirlər;
- Kiçik sahibkarlıq müəssisələrinin yaradılması daha az maddi vəsait tələb edir;
- Onların öz təsərrüfatlarını daha sürətli şəkildə yenidənquramağı mümkündür;
- Texniki baxımdan daha sürətli təchiz olunurlar və bununla da ilkin kapitala qənaət etmiş olurlar;
- Daha sürətli kapital dövriyyəsinə malikdirlər;
- İri sahibkarların çəkindiyi risklər daha asan gedirlər;
- İnhisarçılığın azaldılmasında və qarşısının alınmasında, azad rəqabətin təmin olunmasında xüsusi rol oynayırlar ;
- Daha az kapital ilə istehlak məhsullarının istehsalını həyata keçiri və xidmət sahəsini genişləndirir;
- İşsizliyin azaldılmasında, yerli əhalini işlə təmin olmunmasında əvəzsiz rol oynayır;
- Ölkənin xarici bazara ixrac imkanlarını artırır;

Biz iqtisadi olaraq inkişaf etmiş ölkələrin iqtisadiyyatına nəzər yetirsək görərik ki, bu inkişafda kiçik sahibkarlığın xüsusi rolu var.

Kiçik sahibkarlıq fəaliyyətinin yaranması və inkişafı üçün sahibkarlıq mühitinin olması vacib şərtdir. Son illər Azərbaycanda aparılan islahatlara nəzər yetirsək görə bilərik ki, sahibkarlıq mühitinin formalaşması üçün dövlət tərəfindən müvafiq normativ-hüquqi baza yaradılmışdır. Ölkədə kiçik sahibkarlıq üçün atılan ilk hüquqi addımlardan biri 1992-ci ildə “Sahibklarlıq fəliyyəti haqqında” Azərbaycan Respublikasının qanunu olmuşdur. Bununla yanaşı sahibkarlığın inkişaf etdirilməsi üçün dövlət tərəfindən kifayət qədər addımlar atılmışdır. 27 avqust 2002-ci ildə “Azərbaycan Respublikasında sahibkarlığa Kömək Milli Fondu” yaradılmışdır. Bununla dövlət budcəsi hesabına kiçik və orta bizneslərə güzəştli kreditlər ayrılırdı. 01 avqust 2018-ci ildə bu fond ləğv edilərək İqtisadiyyat nazirliyi yanında “Azərbaycan Respublikası Sahibkarlığın İnkişaf Fondu” təsis edildi. Bununla da sahibkarların maliyyə vasitələrinə çıxışı daha da genişləndi. [2]

Dövlət tərəfində regionlarda olan kiçik və orta sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi üçün atılan addımlardan biri də uzun müddətdir həyata keçirilən Dövlət Proqramlarıdır. Bu Dövlət Proqramları 2004-2008-ci, 2009-2013-çü, 2014-2018-ci, 2019-2023-çü illərdə mərhələli şəkildə həyata keçirilmişdir. Atılan bu addımlar nəticəsinə Azərbaycanda sahibkarlıq inkişaf edir. Dövlətin əsas məqsədlərindən biri də bu inkişafı ən yüksək həddə çatdırmaqdadır. [5,səh 10]

Beynəlxalq təcrübələr onu göstərir ki, sahibkarlıq subyektlərinin daha səmərəli işləməsi üçün onların maliyyə sistemləri dəqiq işlənib hazırlanmalıdır. Sahibkarlıq fəaliyyəsinin inkişaf etdirilməsi üçün vacib olan amillərdən biri maliyyə təminatıdır. Sahibkarlıq fəaliyyətinin maliyyələşdirilməsi sistemi 2 istiqamətdə aparılır:

- Dövlət maliyyəsi
- Təsərrüfat subyektlərinin maliyyəsi

Dövlət maliyyəsinin aşağıdakı növləri var:

- Dövlər büdcəsi
- Sığorta təşkilatları
- Dövlət tərəfindən kredit
- Büdcədənkənar fondlar

Elm və texnikanın inkişafına uyğun olaraq sahibkarlıq subyektlərinin yeni nəsil texnika və

texnologiya ilə təmin olunması, istehsalın artırılması öz növbəsində borc kapitalının artırılmasına gətirib çıxarır ki, onlardan biri də lizinqdir. Biz inkişaf etmiş ölkələrə nəzər yetirsək görərik ki, sahibkarlığa investisya qoyuluşunun 25-30 %-lizinq vasitəsilə həyata keçirilir. Azərbaycanda da kifayət qədər liziq təşkilatları mövcuddur və sahibkarlar tərəfindən - xüsusi ilə də kənd təsərrüfatı ilə məşğul olan sahibkarlar tərəfindən maraq göstərilir. Lizinq yolu ilə kiçik və orta biznesi inkişaf etdirmək daha səmərəlidir. Belə ki, kiçik sahibkarların xüsusi kapitalının olmaması səbəbi ilə kommersiya bankları və kredit təşkilatlarıdan kredit əldə etməsi prosesi çətinləşir və kredit faizləridə nəticəsində əlavə məsrəflər çox olur.

İkinci Qarabağ müharibəsində qazandığımız qələbə Azərbaycan tarixində həm də yeni iqtisadi mərhələnin başlamasına səbəb oldu. Bu qələbə təbii sərvətlərimizdən daha səmərəli istifadə etməyimizə, sahibkarlıq üçün lazım olan şəraitin daha da genişlənməsinə gətirib çıxardı. Dövlət tərəfindən aparılan güclü siyasət nəticəsinə iqtisadi gücümüz də günü gündən artmaqdadır. Belə ki, bu gün Azərbaycana region iqtisadiyyatını transformasiya edə biləcək geniş layihələrə başlamağa imkan yaradır. Prezident İlham Əliyevin 2 fevral 2021 -ci tarixində verdiyi " Azərbaycan 2030: sosial-iqtisadi inkişafın milli prioritetləri" bəyanətı qarşıdakı hədəflərə çatmaq məqsədi daşıyır. İşğaldan azad edilmiş ərazilərdə "ağıllı" kənd və şəhərlərin salınması, yüksək texnologiyalardan istifadə geniş tətbiq olunur.

Bu ərazilərdə kiçik və orta sahibkarlığın inkişafı neft sekorundan asılılığı azaldacaq və qeyri-neft sektoru üçün stimul olacaqdır.

Biz fəaliyyət göstərən sahibkarlıq subyektlərinin Bakı şəhəri ilə bəzi regionlar arasındakı müqayisəsinə nəzər yetirsək görə bilərik ki, regionlarda sahibkarlığın inkişafı nisbətən zəif gedir. 2021-2022-ci illərdə olan müqayisəyə nəzər yetirək:[7]




Qrafik 1.

Hazırda ölkəmizdə "2022-2026-cı illərdə Azərbaycan Respublikasının işğaldan azad edilmiş zonalarının islahatı və inkişafı üzrə Hökümət fəliyyəti" proqramı üzrə işlər aparılır. Həyata keçirilən bu kimi proqramlar və faliyyətlər nəticəsində böyük potensiala malik olan bu ərazilərdə yüksək inkişafa nail olacayıq.

Ölkəmizdə mikro, kiçik və orta sahibkarlıq subyektləri fəaliyyət növlərinə görə bir neçə qrupa bölünür. Bu bölgü aşağıdakı kimi aparılır:[7]




Qrafik 2.

**Nəticə**

Sahibkarlıq fəlaiyyəti ölkə iqtisadiyyatının inkişaf etdirilməsi üçün əhəmiyyətli rola malikdir. Sahibkarlar öz müəssisələrinin genişlənməsi və gəlirlərinin artırılması üçün nə qədər maraqlıdırlarsa, dövlət də bir o qədər maraqlıdır. Sahibkarlığın inkişafı eləcə də məşğulluğun artırılması, yeni iş yerlərinin yaranması ilə nəticələnir ki, bu da müsbət haldır. Dövlət sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün çoxsaylı addımlar atmaqdadır. Bunlara sahibkarlar üçün tətbiq olunan vergi və digər güzəştləri, onların maliyyə cəlb etməsi üçün kreditləşmə proseslərini, müəyyən illəri əhatə edən dövlət proqramlarını göstərmək mümkündür. İşğaldan azad edilmiş ərazilərdə yüksək sahibkarlıq potensialı var. Xüsusi ilə kənd təsərrüfatı üçün kifayət qədər münbit şərait mövcuddur. Hazırda dövlət tərəfindən bu imkanlardan sahibkarların istifadə edə bilməsi üçün əhəmiyyətli addımlar atılır. Yerli əhali mərhələli şəkildə işğaldan azad olunmuş ərazilərə köçürülməyə başlamışdır. Onlar kiçik sahibkarlıla məşğul olmağa başlayır və dövlət hər cür dəstəyi göstərir.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Azərbaycan Respublikasının “Sahibkarlıq fəaliyyəti haqqında” 1992-ci il 15 dekabr tarixli qanunu.
2. Azərbaycan Respublikasının “Kiçik sahibkarlığa dövlət köməyi haqqında” 1999-ci il 4 iyun tarixli qanunu
3. “Sahibkarlığın əsasları”., N.Vaqif, Bakı-2002, 120 s
4. “Kiçik sahibkarlıq”.,Ə.Ş.İmanov, Bakı-2009, 368 s
5. “Azərbaycanda kiçik sahibkarlıq inkişafı”., R.T Əliyev, Bakı-2020 5s
6. www.cabmin.gov.az – Nazirlər Kabineti
7. www.azstat.gov.az – Azərbaycan Dövlət Statistika Komitəsi

**Гейдар Алирза АЛИЕВ**
Западно-Каспийский университе магистрант

## ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ МАЛОГО БИЗНЕСА В АЗЕРБАЙДЖАНЕ

**Резюме**

Увеличение количества субъектов малого и среднего предпринимательства в нашей стране, а также развитие действующих предприятий является одним из основных вопросов, выдвигаемых государством. Азербайджан – страна с высоким потенциалом для развития предпринимательства. Государство предпринимает множество шагов для ускорения этого развития. Государство создает предпринимателям многочисленные условия, как в плане финансовой поддержки, так и других льгот. В результате нашей победы в 44-дневной войне на освобожденных территориях ведутся масштабные строительные работы. По мере восстановления жилья в этих районах люди будут развивать малый бизнес. Территории, освобожденные от оккупации, находятся в очень благоприятном положении для таких областей, как туризм и сельское хозяйство. Также развитие малого предпринимательства положительно влияет на такие факторы, как расширение экономики страны, снижение уровня безработицы и т.д. Помимо увеличения количества малых предприятий, важным моментом также является их развитие. Деятельность субъектов предпринимательства должна адаптироваться к развитию науки и технологий.

**Ключевые слова**: Предпринимательство, экономика, регулирование, финансирование, развитие

**Heydar Alirza ALİYEV**
Western Caspian University Master

## DEVELOPMENT PROSPECTS OF SMALL BUSİNESSES İN AZERBAİJAN

**Abstract**

The increase in the number of small and medium-sized businesses in our country, as well as the development of existing enterprises, is one of the main issues set by the state. Azerbaijan is a country with high potential for the development of entrepreneurship. The state is taking numerous steps to accelerate this development. The state is creating numerous conditions for entrepreneurs, both in terms of financial support and other benefits. As a result of our victory in the 44-day war, significant construction work is being carried out in the liberated territories. As life in these territories is restored, people will develop small businesses. The territories liberated from occupation are in a very favorable position for sectors such as tourism and agriculture. Also, the development of small businesses has a positive impact on factors such as the expansion of the national economy, reducing unemployment, etc. In addition to increasing the number of small businesses, their development is also an important point. The activities of business entities must adapt to the development of science and technology.

**Key words**: Entrepreneurship, economics, regulation, financing, development